# ADAU-da Qərbi Azərbaycana qayıdışla bağlı elmi-nəzəri konfrans keçirilmişdir

**Konfransı giriş sözü ilə açan Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) rektoru, Qərbi Azərbaycan İcmasının Qərb bölgəsi üzrə sədri Zəfər Qurbanov tədbirin əhəmiyyətindən bəhs edərək bildirib ki, Qərbi Azərbaycan həqiqətlərinin elmi əsaslarla araşdırılması və gənc nəslə çatdırılması mühüm vəzifələrdəndir.**



Rektor qeyd edib ki, çox da uzaq olmayan tarixi yaddaşın qorunması, arxiv sənədlərinə əsaslanan tədqiqatların aparılması və bu istiqamətdə maarifləndirmə işinin gücləndirilməsi prioritet məsələlərdəndir. Natiq Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımızın taleyindən, müxtəlif dövrlərdə ermənilər tərəfindən tarixi Azərbaycan torpaqlarının çar Rusiyasının dəstəyi ilə məqsədyönlü işğalından, qədim dədə-baba yurdlarımızın erməniləşdirilməsindən, yüz minlərlə əhalinin didərgin düşməsindən və soyqırımına məruz qalmasından söz açmışdır.

"Bu gün Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu və uzaqgörən siyasət sayəsində Qarabağın mənfur düşməndən işğalına son qoyuldu və bu uğurun davamı olaraq Qərbi Azərbaycana Qayıdış Konsepsiyası inamla öz həllini tapmaqdadır. Tarixi torpaqlarımızda azərbaycanlılara məxsus yerli toponomlər nə qədər dəyişilsə, tarixi abidələr vandalcasına dağıdılsa belə, yaddaşlardan silinə bilməz və biz mütləq həmin torpaqlara qayıdacağıq və bu gün hər birimiz qərbi azərbaycanlıyıq", - deyə Zəfər Qurbanov çıxışında bildirib.

Konfransda çıxış edən ADAU-nun alimləri arxiv sənədlərinə və tarixi mənbələrə istinad edərək XIX və XX əsrlərdə bölgədə baş verən proseslər, soydaşlarımızın başına gətirilən müsibətlər, deportasiya mərhələlərinin xronologiyası və demoqrafik dəyişikliklər barədə faktları tədbir iştirakçılarının diqqətinə çatdırdılar. Çıxışlarda həmçinin Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın hüquqlarının bərpasından, onların tarixi torpaqlarına qayıdışından və tarixi gerçəkliyin, ədalətin bərpasından danışılıb.

***Maarif RZAYEV,***
***ADAU-nun***
***"Aqrar mütəxəssis"***
***qəzetinin redaktoru***

Azərbaycan.- 2026.- 19 fevral (№32).- S.9.